

# Dövlətçilik tariximizdə əvəzedilməz

# DAHİ LİDER

***Hüquqi, demokratik dövlətin qurulması, vətəndaş cəmiyyətinin formalaşması, azərbaycançılıq ideologiyasının milli məfkurəyə çevrilməsi, dünya azərbaycanlılarının vahid amal uğrunda birləşməsi ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır.***

Ümummilli Lider ölkəmizə rəhbərliyinin hər iki mərhələsində Azərbaycanın milli inkişaf siyasətinin, gələcək ictimai-siyasi, sosial-iqtisadi və mədəni-mənəvi tərəqqisinin əsasını qoymuş, daxili və xarici siyasətin prioritetlərini müəyyənləşdirmiş, dövlət müstəqilliyinin qorunub saxlanılması, möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlər göstərmişdir. Yeni əsrə ulu öndər Heydər Əliyevin parlaq ideyaları, inkişaf strategiyası ilə qədəm qoyan müstəqil Azərbaycan böyük uğurlara imza atmış, beynəlxalq arenada sayılıb-seçilən ölkələr sırasında layiqli yer tutmuşdur.

**(davamı 3-cü səhifədə)**

# Dövlətçilik tariximizdə əvəzedilməz

# DAHİ LİDER

(əvvəli 1-ci səhifədə)

Ötən əsrin 70-ci illərində ölkəni yeni inkişaf mərhələsinə yüksəldən dahi lider, əsrin sonlarında müstəqilliyini bərpa edən respublikanı zamanın çətin sınaqlarından çıxarmaqla tarixin gedişatını dəyişməyə müvəffəq olmuş, bütün varlığı ilə sevdiyi xalqının xilaskarı, dövlət müstəqilliyinin təminatçısı olmuşdur. Dövlətçilik tariximizdə əvəzedilməz yeri olan Heydər Əliyev xalqımızın yaddaşında müdrik siyasətçi, nüfuzlu dövlət xadimi olmaqla bərabər, həm də dəyişməz əqidəli, milli dəyərlərə bağlı dahi lider kimi əbədi yaşayır.

Millətlərin, xalqların mədəni yüksəlişində, dövlətlərin möhkəmlənməsində böyük şəxsiyyətlər mühüm rol oynayır. Bu mənada, Heydər Əliyevin adı müstəqil Azərbaycanın banisi kimi müasir tariximizə əbədi həkk olunmuşdur. Ulu öndərin Vətən, xalq, millət qarşısındakı ölçüyəgəlməz xidmətləri bügünkü reallıqların əsasını təşkil edir. Ümummilli lider iti zəkası, uzaqgörənliyi, bənzərsiz liderlik məharəti ilə müasir Azərbaycanın qurucusudur.

1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev dövlət müstəqilliyinin itirilməsi kimi real təhlükəni aradan qaldırdı, ölkəni böhran vəziyyətindən çıxarmaqla hərbi-siyasi sabitliyə nail oldu. Ulu öndərin rəhbərliyi ilə güclü dövlət quruculuğu istiqamətində əsaslı işlərə başlandı, cəmiyyətin bütün sferalarında mühüm islahatlar həyata keçirildi, ölkə iqtisadiyyatının dirçəldilməsi, Azərbaycanın dünyaya tanıdılması üçün mühüm addımlar atıldı. Ölkəmizdə ordu quruculuğu prosesi başlandı, nizami milli ordu formalaşdırıldı, maddi-texniki bazası möhkəmləndirildi, silahlı qüvvələrin təyinatını, statusunu təsbit edən qanunlar qəbul edildi. Müstəqil ölkə üçün milli ordunun nə qədər vacib olduğunu vurğulayan ulu öndər bu sahənin inkişaf etdirilməsini dövlət siyasətinin prioriteti olaraq müəyyənləşdirdi: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir". Bu sahədə milli kadrların hazırlanması, ordunun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün ayrılan xərclərin artırılması Azərbaycan Silahlı Qüvvələrinin formalaşmasına zəmin yaratdı.

Müstəqilliyini yenicə bərpa etmiş, iqtisadi gücü, siyasi arenada nüfuzu olmayan Azərbaycanı qəbul etməyən, əməkdaşlıq əlaqələri qurmayan dövlətlər dünyaşöhrətli Heydər Əliyevin uzaqgörən, müdrik siyasəti sayəsində respublikamıza maraq göstərməyə, dünyanın böyük neft şirkətləri ölkəmizə yatırımlar yatırmağa başladılar. Prezident Heydər Əliyevin təşəbbüsü ilə 1994-cü il sentyabrın 20-də "Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında" dövlət neft şirkəti ilə xarici şirkətlər arasında "Əsrin müqaviləsi" imzalandı ki, bununla da xarici ölkələrdən böyük sərmayə axını başladı, MDB məkanında Qərbin iri neft şirkətləri ilə irimiqyaslı saziş imzalayan ilk dövlət olaraq Azərbaycan Xəzər dənizində beynəlxalq əməkdaşlığın bünövrəsini qoydu, dünya dövlətləri ilə ikitərəfli, çoxtərəfli iqtisadi əlaqələr genişləndirildi. "Əsrin müqaviləsi" çərçivəsində dünyanın aparıcı şirkətləri ilə əməkdaşlıq edən Azərbaycan iqtisadiyyatının digər sahələrini də inkişaf etdirməyə, yeni iqtisadi əlaqələr sistemində öz yerini tədricən möhkəmləndirməyə başladı. Sovet dönəmindən qalan bir sıra sənaye müəssisələrinin özəlləşdirilməsi, yenilərinin yaradılması istiqamətində atılan addımlar iqtisadiyyatda böyük irəliləyişlərə səbəb oldu. İqtisadi sahədə sürətli inkişaf dövlət büdcəsinə daha çox vəsaitin daxil olmasını təmin etdi ki, bu da ordu, təhsil, səhiyyə sahələrində islahatları davam etdirməyə, əhalinin sosial rifahını yüksəltməyə imkan verdi.

Dövlət idarəçiliyinin bütün sahələrinin mütərəqqi standartlara uyğunlaşdırılması, insan hüquq və azadlıqlarının qorunması ilə bağlı demokratik islahatlar həyata keçirildi. Ümummilli liderin təşəbbüsü ilə müstəqil Azərbaycanın yeni Konstitusiya layihəsi hazırlandı və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxardı. Konstitusiya layihəsi hazırlanarkən geniş müzakirələrdən sonra Ana Qanunumuzun 21-ci maddəsində Azərbaycan dilinin dövlət dili olması öz əksini tapdı.

18 iyun 2001-ci il iyunun 18-də Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman, ardınca isə "Azərbaycan Respublikası Dövlət Dil Komissiyasının təşkilinin təsdiq edilməsi haqqında" Sərəncam imzaladı, həmin il avqustun 9-da "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsdiq edilməsi haqqında" fərman qüvvəyə mindi. 2002-ci il sentyabrın 30-da imzalanan "Azərbaycan Respublikasının dövlət dili haqqında" Qanun ana dilinə hərtərəfli qayğını, dövlət dilinin işlənməsini, inkişafını, saflığının qorunmasını, ədəbi dilin normalarına əməl edilməsini, ölkəmizdə dilçilik elminin nəzəri və tətbiqi sahələrinin inkişafı üçün lazımi şəraitin yaradılmasını nəzərdə tuturdu. Bütün bu fərman və sərəncamların verilməsi, qanunların qəbul edilməsi isə ümummilli liderin dövlətinə, xalqına, onun dilinə sədaqətinin, məhəbbətinin təzahürü idi. "Hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı öz ana dilini - Azərbaycan dilini, dövlət dilini bilməlidir", - deyən Heydər Əliyev fəaliyyətinin bütün dövrlərində ana dilinin keşiyində dayanmış, müstəqil dövlətçiliyimizdə doğma dilin hakim dil olaraq möhkəmlənməsi və daha da inkişaf etdirilməsi istiqamətində əvəzsiz xidmətlər göstərmişdir.

Ümummilli lider Heydər Əliyev müəyyənləşdirdiyi milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə xüsusi diqqət və qayğı göstərmişdir. Belə ki, Azərbaycanda təhsil siyasətinin inkişafı və bu inkişaf prosesinin dünya təhsil sisteminə inteqrasiyası 1993-cü ildən başlamışdır. Bu illərdə Azərbaycanda təhsilin Avropa təhsil sisteminə inteqrasiyası istiqamətində zəruri addımlar atılmışdı ki, bu da ümumilikdə milli təhsilin forma və məzmunca zənginləşməsində yeni təlim texnologiyalarının tətbiqinə geniş imkan yaratmışdı. Azərbaycanın təhsil siyasətinin böyük qurucusu ümummilli lider Heydər Əliyevin təhsil islahatları milli təhsilimizin inkişafının əsasını qoydu. O illərdə milli təhsil sisteminin qurulması məqsədilə qəbul olunan "Təhsil islahatları proqramı" əsasında təhsil sistemində müasir texnologiyaların tətbiqinə başlanıldı.

Ulu öndərin Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illər tariximizə dövlət quruculuğu dövrü kimi düşdü. Məhz həmin illərdə Azərbaycanda müstəqil və müasir dövlət idarəçiliyi formalaşdırıldı, siyasi idarəçiliyin əsasları yaradıldı. Müstəqil Azərbaycan Respublikası postsovet ölkələri ilə müqayisədə keçid dövrünü daha sürətlə aşdı, dayanıqlı və davamlı rifah yoluna qədəm qoydu. Prezident Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində ölkədə baş verən proseslər köklü surətdə dəyişdi, müstəqil Azərbaycan tarixinin növbəti mərhələsində yaşamaq və suverenliyini, müstəqilliyini əbədiləşdirmək gücü qazandı. Azərbaycan müasir, dünyəvi, beynəlxalq aləmə inteqrasiya edən ölkə imicini yaratdı. Ümummilli lider Heydər Əliyevin şah əsəri olan müasir Azərbaycan hərtərəfli inkişaf mərhələsinə yüksələrək dünya birliyində nüfuz qazandı. 1993-2003-cü illərdə qoyulmuş möhkəm təməl, həyata keçirilən islahatlar, irəli sürülmüş təşəbbüslər bütün dünyada nüfuz qazanan, regionda söz sahibi olan Azərbaycanın bugünkü reallığını səciyyələndirir: ərazi bütövlüyü və suverenliyini bərpa etmiş Azərbaycan dünyada etibarlı tərəfdaş, regionda söz sahibidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**